Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika
Uşaq Kitabxanası**



Balaş Azəroğlunun 95 illik yubileyi münasibətilə hazırlanmış metodik vəsait

# *O taylı, bu taylı Vətənin azadlıq carçısı- Balaş Azəroğlu*

Bakı -2016

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar mədəniyyət işçisi**

**Redaktor:** **Səməd Məlikzadə**

Xalq şairi Balaş Azəroğlunun 95 illik yubileyi münasibətilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.-34 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

## Tərtibçidən

Hər bir sahədə olduğu kimi, ədəbiyyat da özünəməxsusluğu sevir. Əgər sənin düşüncə və ifadə tərzin yenidirsə, qələmə aldığın mövzu kimsənin yazdığına bənzəmirsə, sən şeir, hekayələrində öz fikirlərini təbii və ürəyəyatımlı bir dildə təqdim etməyi bacarmısansa, yazdıqların oxucu tərəfindən seviləcək.

Ömrü poeziyasının ömrü qədər olan şairlərimizdən biri də Balaş Azəroğludur. Adı XX əsr Azərbaycan poeziyasının görkəmli simaları sırasında hörmətlə çəkilən B. Azəroğlu həyatının yetmiş ildən artıq bir dövrü ərzində mənalı yaradıcılıq yolu keçərək, xalqımızın bədii söz xəzinəsinə dəyərli töhfələr verib. Şairin qırxdan çox kitabda toplanmış əsərlərinin əsas leytmotivini vətənə bağlılıq, milli oyanış və azadlıq uğrunda mübarizənin tərənnümü təşkil edir. Humanizm ideyalarının carçısı olan Azəroğlu lirikasına xas olan cəhətlərdən biri də bəşəriyyətin gələcək taleyi üçün dərin narahatlıq və məsuliyyət hissidir. Onun poeziyası orijinal obrazlılıq tərzi, üslub xüsusiyyətləri və poetik axıcılığı ilə  oxucuların rəğbətini qazanıb.

Bu il Balaş Azəroğlunun 95 illik yubileyi ədəbi içtimaiyyət və poeziyasevərlər tərəfəndən geniş qeyd edləcək. Bu münasibətilə hazirladığımız vəsait iki hissədən ibarətdir. I hissədə şairin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə Balaş Azəroğlunun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

*Həyat və yaradıcılığı*

Balaş Allahbaxış oğlu Abizadə 1921-ci il noyabrın 11-də Bakı şəhərində anadan olub. Valideynləri Cənubi Azərbaycanın Ərdəbil şəhərinin Səlim qışlağı kəndindən idilər. O, orta təhsilini Bakıda alıb. İlk mətbu şeiri "Dnepr" adlanır və 1937-ci ildə çap edilib. Ölkəni bürümüş repressiya bu ailənin də bəxtinə qara günlər yazıb. Onlar İran təbəəsi olduqlarından 1937-ci ildə Cənubi Azərbaycana sürgün ediliblər. Xəzər sahilindən ayrılan ailə Savalanın ətəyinə köçüb. Burada ibtidai məktəbdə fars dilində təhsil alıb. O, "Karvan" adlı şeirində öz nisgilini dilə gətirib. Erkən yaşlarından milli azadlıq hərəkatına qoşularaq İran Xalq Partiyasına daxil olub. Bu partiyanın şahlıq üsul-idarəsinin əleyhinə təşkil etdiyi mitinqlərdə fəal iştirak edərək milləti azadlığa çağıran şeirlər yazıb. "Azəroğlu" imzasını da elə o vaxtdan götürərək ilk şeirini - "İnqilab şairiyəm" adı ilə çap etdirib. O illər barədə söhbət düşəndə özü belə deyərdi: "Bu şeir mənim həyat proqramımın ilk qaranquşu idi". Bu şeir həm də Balaş Azəroğlunu bütöv Azərbaycanda tanıdan uğurlu bir əsər oldu:

Mən əyilib hakimin əllərindən öpmədim,
Şeirimi çiçək kimi ayaqlara səpmədim.
Nə aciz bir bəndəyəm, nə satılmış bir qulam,
Nə saray məddahıyam dərgahlardan qovulam.
Mən ellərin oğluyam, ellər böyütmüş məni,
Şeirim eldən alıbdır bu ilhamı, qüvvəni.

Mən nə şam, nə pərvanə, nə rübab şairiyəm,
Azadlıq carçısı, inqilab şairiyəm.

Könül dəftərinin bütün yükünü bax belə, ilhamdan yoğrulmuş şeirlərdən tutdu Balaş Azəroğlu. Ömrü boyu mərd və əyilməz olub. Ərdəbildə çıxan "Yumruq" qəzetinə redaktorluq edib. "Vətən yolunda" qəzeti redaksiyasının keçirdiyi müsabiqədə "Səttarxan" şeiri mükafata layiq görülüb. Ərdəbildə müxtəlif vəzifələrdə çalışan Balaş Azəroğlu Təbrizdə milli hökumət tərəfindən oradakı Dövlət Radio Verilişləri Komitəsinin sədr müavini təyin olunub. Yazıçılar və Şairlər Cəmiyyətinin idarə heyətinin üzvü seçilib. Həm Ərdəbildə, həm də Təbrizdə onun şeir kitabları çap edilib. 1941-1945-ci illərdə Cənubi Azərbaycanda gedən milli azadlıq hərəkatında fəal iştirakına görə Milli hökumət tərəfindən "21 Azər" medalı ilə təltif olunub. 1946-cı ildə "Firdovsi" medalına layiq görülüb.

1947-ci ildə Bakıya mühacirət etməyə məcbur oub. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. Ali məktəbi qırmızı diplomla bitirdikdən sonra müxtəlif vəzifələrdə çalışan Balaş Azəroğlu elmi işlə də məşğul olub, müdafiə edərək filologiya elmləri namizədi, alimlik dərəcəsi alıb. 1958-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilib. İctimai-siyasi işlərlə yanaşı, ədəbi fəaliyyətini də uğurla davam etdirib. Bir sıra elmi-tədqiqat və tərcümə kitabları çap edilib. Ədəbi və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Balaş Azəroğlu hələ sovet dövründə bir sıra orden və medallarla təltif edilib, 1981-ci ildə Azərbaycanın "Xalq

şairi" fəxri adına layiq görülüb. Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra "Şöhrət" ordeni ilə mükafatlandırılan Balaş Azəroğlu həm də Prezident təqaüdçüsü idi...

Vətənin bütövlüyü həsrətilə yanıb-qovrulan Balaş Azəroğlu yarım əsr ayrılıqdan sonra Təbriz şəhərini görmək arzusuna da qovuşub. Onun bu münasibətlə yazdığı şeirində deyilir:

İnanmırdım, ana Təbriz,
Bir də səni görüm belə;
İllərimi saya-saya,
İstəmirdim öləm belə.

Cənublu yazar Səməd Behrənginin qəbri başında çəkdiyi ağı da Balaş Azəroğlunun illər boyu qəlbində gəzdirdiyi dözülməz həsrətdən xəbər verir: "Bilmirəm fələyin bizlə qəsdi nə?"

Amal şairi olan Balaş Azəroğlu ədəbiyyat sahəsində qələm çaldığı gündən öz prinsipinə, məramına sonadək əməl edib. O, sanki bir döyuş meydanına atılaraq cəngavər kimi vuruşdu. O, əsl şair, vətəndaş olduğunu öz əsərləri ilə sübut edib. Azadlıq sevən, bu yolda ən ağır məhrumiyyətlərə dözməyi bacaran Balaş Azəroğlu xalqının taleyindən yazmaqdan yorulmayıb. Millətin böyüklüyünü, əyilməzliyini tərənnüm edə-edə bizə saplanan baltaların da kimin əlində olduğunu dəfələrlə dürüst söyləyib. Onun şeirlərini oxuyanda həm heyrətlənirsən, həm də içində bir qəzəb püskürür. Fikirləşirsən ki, “bu

qədər böyük, humanist bir millətin suçu nədir ki, illər boyu dərdini Arazın sularına axıdır? Və bu nəhrin öz günahı nədir ki, poeziyamıza ayrılıq çayı, duyğularımıza çəpər kimi daxil oldu?"

Balaş Azəroğlu yaradıcılığına nəzər yetirəndə onun Cənub ədəbi mühitinin mənzərəsini yaradan əsərlərindən xüsusi danışmaq lazımdır. Şair ədəbiyyatımızın bu coğrafi məkanına yeniliklər gətirən, forma axtarışları və mövzuları ilə seçilən bir müəllif kimi ucada dayanır. O, hələ 1937-ci ildə 16 yaşında ikən yazdığı "Addımlar" şeirində görün nə deyir:

Körpəcə bir quşam, asiman dərin,
Mən o dərinliyə uçmaq istərəm.
Nəğmə dəftərimin, söz dəftərimin,
Adını "Vətən"lə açmaq istərəm!

Bu "Vətən" dəftərinin sayı çox oldu. Mətin və igid bir oğul kimi hər cür çətinliyə dözərək, vətən sevgisini könül sözləri ilə dilə gətirməyi, sənət meydanında məğrur yeriməyi, dəyanətli yaşamağı, uca görünməyi bacardı Balaş Azəroğlu. Bakıda yaşayanda Təbrizdən yazdı, Ənzəlidə məskunlaşanda Xəzəri arzuladı! Varlığında o tayı, bu tayı birləşdirdi.

***Görkəmli şəxslərin Balaş Azəroğlu haqqında söylədikləri:***

Balaş Azəroğlu novator şair və eyni zamanda gözəl tədqiqatçıdır.

Yavuz Axundlu,
*filologiya elmləri doktoru*

Balaş Azəroğlunun şeirləri məhz insanları ayağa qaldıran, mübarizəyə və gələcəyə səsləyən yüksək poeziya örnəkləridir.

Anar,
*Xalq yazıçısı*

Balaş Azəroğlu klassik ənənələri yaradıcı şəkildə davam və inkişaf etdirən sənətkarlardandır.

Balaş Azəroğlunun yaradıcılığı geniş diapozona, əlvan poetik keyfiyyətlərə malik poeziya nümunəsidir.

Arif Abdullazadə,
*filologiya elmləri doktoru*

Balaş Azəroğlu Azərbaycan şeirinin müqəddəs səltənətinə zəngin mənəviyyat, zərif və bakir hisslərdən ibarət könül dünyası, mübariz, məğrur və təlatümlü fikirlər gətirmişdir.

Məsud Əlioğlu,
*yazıçı.*

Bizdən sonra gələn nəsillərə Balaş Azəroğlu görk olacaq. And yeri olacaq.

Fikrət Sadıq,
*şair.*

Balaş Azəroğlunun sətirləri arxasında altmış ildən çox bir ömrün zəngin həyat təcrübəsi durur.

Arif İbrahimov,
yazıçı.

Balaş Azəroğlunun 95 illik yubileyi münasibətilə kitabxanada kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairin, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitab sərgisinin də keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Sinəm Savalan dağıdır", "Güneyli-quzeyli şair", "O taylı, bu taylı şeirimizin ağsaqqalı", "Nə qədər ki, vətən para-paradır, nə qədər ki, mübarizə var, nə qədər ki, şeir var, Balaş Azəroğlu da var bu dünyada", "Amalı şeir olan şair- Balaş Azəroğlu", "İdeyalar, arzular şairi", "Qoy sözüm güc alsın əlimdən mənim", "Elə oğul istəyir Vətən...", "Xalq şairi - xalqın şairi", "Azərbaycan carçısı - inqilab şairi-Balaş Azəroğlu", "Doldur piyaləmi Arazdan mənim", "Cənub həsrətli böyük şair", "Fikir və ideya şairi Balaş Azəroğlu", "O taylı, bu taylı Azərbaycanı şeirlərində birləşdirən şair", "İki sahilin şairi" və s. Şairin müxtəlif illərdə çəkilmiş foto stendi ilə yanaşı, Balaş Azəroğlunun kitabları və bir çox şairlərin B. Azəroğlu haqqında dövri mətbuatda yazılan materiallar sərgidə öz yerini ala bilər. Görkəmli insanların şair haqqında söylədikləri fikirlərin və şeir parçalarının da oxuculara çatdırılması da əhəməyyətli olar.























Azərbaycan carçısı, inqilab şairi Balaş Azəroğlunun 95 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçirilə biləcək tədbirlərdən biri də *“Nəğmə dəftərimin, söz dəftərimin adını “Vətən”lə açmaq istərəm”* adlı şeir müsabiqəsidir. Bu məqsədlə kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Onlar müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə

kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Balaş Azəroğlunun həyat və yaradıcılığından, içtimai fəaliyyətindən və əsərlərindən söhbət açır.

Sonra kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:

Kitabxanaçı: - Mən görkəmli şairimiz Balaş Azəroğlunun yaradıcılığı haqqında söz açmaq istəyirəm. Balaş Azəroğlu poeziyası o taylı-bu taylı Azərbaycanın milyonlarla oxucu üçün bir işıq, bir ümid seli olmuşdur. Milli azadlıq hərakatının ən qaynar çağlarında onun şeiri də fədailər sırasında idi. Döyüşürdü, səngərdən-səngərə atılırdı.

Mən nə şah, nə sultan,
nə yaraşıq, nə zinət,
Nə əfsanə, nə mələk.
nə saray, nə səltənət.
Nə peymanə, nə saqi.
nə şərab şairiyəm,
Azadlığın carçısı,
Inqilab şairiyəm.

Şairin çağdaş poeziyamızın mübarizə ruhunu ifadə edən gözəl şeirləri və poemaları vardır. Onun bir alim, tədqiqatçı kimi də fəaliyyəti əvəzsizdir. Balaş Azəroğlu klassik Azərbaycan poeziyasının iki görkəmli nümayəndəsi - Məhəmməd Əmani və Saib Təbrizi haqqında qiymətli monoqrafiyaların müəllifidir. Balaş Azəroğlu həm də kamil tərcüməçi kimi saysız-hesabsız poetik nümunələri farscadan dilimizə çevirib.

*Kitabxanaçı söhbəti bitirdikdən sonra birinci iştirakçı “Dəniz olmaq lazımdır” adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır:*

- Göl min il yaşadı səssiz-səmirsiz
Nə bir bulaq gördü, nə də bir dəniz.
Lillənib qaldıqca öz yatağında
İncitdi qəlbini, o torpağın da.
Nə sevinci oldu, nə də kədəri.
Belə sakit ötdü ömrün günləri.
Dağ seli bircə gün haray qopardı,
Qayalar uçurtdu, daşlar apardı.
Sonra da qovuşdu axar bir çaya.
Axdı fırtınalı coşğun bir çaya,
Nə ömrə acıyıb, nə bəxtə küsdü,
Mənalı bir ömrə bir gün də bəsdi...

*İkinci iştirakçı “Ömür” adlı şeiri deməyə başlayır:*

-Deyirlər ömrün də bu dünyamız tək
Dərəsi, düzü var.
Yaşayırıq biz...
Ömrün günlərini dərədə, düzdə.
Bəzən də yoxuşda daşıyırıq biz.

Hər ötən günümüz bizə yük olur,
Əyir çiynimizi
Dözürük yenə...
Gedirik, neçəsi yolda yorulur.
Gedirik bir ömrün son zirvəsinə.

Yayın gündüzləri, qışın gecəsi
Bizə uzun gəlir.
Danışırıq da...
Elə bil maqnitdir ömrün zirvəsi

Ona qovuşmağa çalışırıq da.

*Üçüncü iştirakçı səhnəyə yaxınlaşıb “Ana” şeirini söyləyir:*

\- Payız tək qucağı bəhərlə dolu,
Yay kimi qəzəbi, sevinci odlu.
Qışın qarından da daim üzü ağ,
Bahar günəşi tək mehriban, parlaq,
Bizim dünyamızın bəzəyi ana.
Bütün göyçəklərin göyçəyi ana.

Babam ömrü boyu hey cənnət gəzdi,
O cənnət sənsən.
Atam ölənədək səadət gəzdi,
Səadət sənsən.
Oğlum gözəllərdən məhəbbət gəzdi,
Məhəbbət sənsən.
Mən də bir zamanlar həqiqət gəzdim
İndi dərk etdim ki, həqiqət sənsən.
Həyatın ən böyük neməti ana.
Bütün insanlığın şöhrəti ana.

*Növbəti iştirakçı səhnəyə yaxınlaşaraq “Ana dili” şeirini söyləməyə başlayır:*

-Bir gün əsir düşmüş bir qəhrəmanı
Sorğuya, suala çəkəndə cəllad,
“Sizin əlinizdə ölmərəm!-dedi,-
Məni zaman-zaman yaşadar həyat”.
Dedilər:- Gözünü ovarıq sənin,
Görə bilməzsən.
Dedi: Yaşaram!
Dedilər:- Qolunu qırarıq sənin
Silahın, kəsərin düşər əlindən.
Dedi: Yaşaram!
Dedilər:-Qıçına kündə vurarıq,

Gəzə bilməzsən.
Başında elə bir tonqal qalarıq
Dözə bilməzsən.
Dedi: Yaşaram!
Dedilər:-Nəyin var aparırıq biz,
Bir də keçmişinə dönə bilməzsən.
Dedi: Yaşaram!
Dedilər:- Dilini qopararıq biz,
Danışa bilməzsən, dinə bilməzsən.
Susdu qəhrəman.
Nə yaşaram dedi, nə ölləm dedi.
Söylədi:-Nə bilir elə, ey cəllad.
Divan sənindi,
Dövran sənindi.

Kitabxanada Balaş Azəroğlu kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir. Söhbət zamanı şairin özü və kitabları haqqında məlumat verir, kitabların annotasiyaları oxuculara ətraflı çatdırılır.

Kitabxanaçı: - Şair "Azəroğlu" sözünü təxəllüs seçməkdə tamamilə haqlıdır. Həqiqi sənətkarın istedadı xalqdan gəldiyi və xalqa layiq olduğu üçün tükənməzdir. Balaş Azəroğlunun yaradıcılıq həyatı təlatümlü fikirlər axınından və coşqun hisslər fırtınasından keçib gəlmişdir. Vətəni Azərbaycan və doğma xalqı şairin ilham çeşməsinin başlıca mənbəyi olmuş və poeziyanın döyüşkən yolunda seçdiyi sənətkarlıq amalının, məna-məfkurə qaynaqlarına çevrilmişdir.

B. Azəroğlu insanı həyacana gətirməyən, təsir oyatmayan mövzulardan daim uzaqdır. Şairin qələmə

aldığı mətləblərin əksəriyyəti oxucunu düşünməyə vadar edir, hisləri alovlandırır. Yaradıcılıq yolunun ümumi istiqaməti üçün epiqraf ola biləcək bu misraları deyərkən şair nə qədər də haqlıdır:

-Mən ellərin oğluyam, ellər böyütmüş məni,
Şeirim eldən alıbdır bu ilhamı, qüvvəni.

Balaş Azəroğlunun 1964-cü ildə çapdan çıxmış *“Elə oğul istəyir Vətən”* adlı kitabında şairin vətən sevgisi, insana məhəbbəti bariz şəkildə duyulur. Fəlsəfi fikirlərdən, həyati düşüncələrdən və yurd nisgilindən yaranan *“Məcnun söyüd”* adlı şeirlər toplusu 1966-cı ildə nəşr edilmişdir. Onun 1967-ci ildə işıq üzü görmüş “Savalan əfsanəsi” kitabı mənzum nağıllar toplusudur. Şairin bir neçə il sonra, 1970-ci ildə nəşr olunmuş “*Var səsimlə”* kitabı suyu qəmlə axan Arazın fəryadını, Təbrizsiz günlərin iztirabını, insana olan saf məhəbbəti, vətən, torpaq sevgisini, təbiətin gözəlliklərini özündə təzahür edir. Şairin sonralar-1971-ci ildə nəşr olunan “*İllərdən illərə*”, 1976-cı ildə nəşr etdirdiyi *“Yarpaqlar töküləndə”* kitablarında ömrün günlərindən, Avropa görüşlərindən, xatirələr dünyasından söhbət açan şeirlər yer almışdır. 1978-ci ildə nəşr olunmuş *“Dünənim, bu günüm, sabahım*” adlı şeirlər kitabı Balaş Azəroğlunun kövrək xatirələrinin məhsuludur. Bu kitabda doğma vətənimizdən, dilimizdən, ülvi məhəbbətdən söhbət açılır. Kitabda şeirlərlə yanaşı, gözəl poemalar da yer alıb. “Dünənim, bu günüm, sabahım” adlı şeirlər kitabında müasir həyatda baş verən mühüm hadisələrə, qurub-yaradan insan əməyinə, mənəvi aləminə həsr olunmuş və mövzusu beynəlxalq həyatdan alınmış şeirlər toplanmışdır. Kitabın sonunda böyük şairimiz Səməd Vurğuna həsr olunmuş “Ayrılarmı könül candan”, Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərinin motivləri

əsasında yazılmış “Qəsri Şirin”, sənət və sənətkarlıqdan bəhs “Aşıq heykəli” və “Üçüncü İsgəndər” adlı lirik poemalar verilmişdir. Balaş Azəroğlunun 1992-ci il və 1993-cü ildə çap olunmuş ikicildli *“Seçilmiş əsərləri”* oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Şairin ikicildliyinin birinci cildinə yaradıcılığının yetkin dövrünü əhatə edən müxtəlif səpkili şeirləri və poemaları daxil edilmişdir. Bu əsərlərdə müasir insanın duyğu və düşüncələri, müstəmləkə zəncirlərini qırmaqda olan xalqların azadlıq ideyalları bədii əksini tapmışdır. Bundan başqa, onun 2004-cü ildə latın qrafikası ilə nəfis bir şəkildə nəşr edilmiş “Seçilmiş əsərləri” də oxucular tərəfindən sevilərək oxunur.

Balaş Azəroğlunu və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada başqa tədbirlər də keçirmək olar. Məsələn, bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Balaş Azəroğlunun əsərlərini oxuyur, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə B. Azəroğlunun bir sıra hekayələrini səhnələşdirə bilər. Məsələn: şairin sevilən əsərlərindən biri olan “Savalan əfsanəsi” əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik.

Öncə səhnə əsərlərə uyğun olaraq, dekorasiya hazırlanır. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Aparıcı səhnəyə yaxınlaşaraq poemadan bir hissə deməyə başlayır:

I iştirakçı: -Sizə bir nağıl deyim
Uzaq-uzaq zamandan.
Mən bu şirin nağılı

Eşitmişəm babamdan...
Günlərin bir günüydü,
Təzə gəlmişdi bahar.
Buğlanırdı torpaqlar.
Ağaclar çiçəkələyib
Yaşıllaşmışdı çəmən.
At üstə yol gedirdik
Babam, atam bir də mən.
Biz Muğandan keçəndə
Gördük Savalan dağı-
Yenə güllə, çiçəklə
Çağırır hər qonağı.
Qoyun sürüləri də
Düzülüb qatar-qatar
Əyri cığırlar ilə
Yaylağa qalxırdılar.
Babam atın üstündə
Dikələrək bir qədər,
Dedi:

II iştirakçı: - Bu Savalanın
Qəribə tarixi var.

I iştirakçı: - Sonra qoyub əlini
Bir də gözünün üstə,
Baxıb, baxıb o dağa
Belə dedi ahəstə:

II iştirakçı: - Bizdən uzaq zamanda
Bax bu yerdə - Muğanda
Nə dağ varmış, nə təpə.
Baxsaydın hər tərəfə,
Görərdin qatar-qatar
Qoyunlar otlayırlar.
Yoxmuş kənd də, şəhər də.

Ancaq bu gözəl yerdə
Bir tayfa yaşayırmış,
Böyük dövləti varmış.
Atları ilxı-ilxı,
Qoyunu sürü-sürü,
Dəvəsi qatar-qatar.
Bütün ellər, tayfalar
Deyərmişlər həsədlə:
Belə yer yoxdur hələ.
Böyük nemətdir Muğan,
Otlaqların başındadır.
O, hər yerdən yaxşıdır.
Ya qış olsun, ya bahar-
Bu yerdə ot tapılar.
Bir yanı da xan Araz-
Qoyunlar susuz olmaz.
Hər qurtumu süd olur.
Hər çiçəksə ət olur.
Ona qonşu tayfalar
Həsəd aparırdılar.
Muğanda məskən salan,
Ata-babadan qalan
Bil adında tayfaya.
Başlayırdı davaya
Hər il qonşunun biri.
Tutmaq üçün bu yeri,
Xeyli qan tökülərdi,
Çoxlu adam ölərdi.
Fəqət təslim olmazdı
Yenə də Bil tayfası.
Düşmənlərin davası
Ara verən zamanda-
Toy olardı Muğanda.
Aylar belə keçərdi.

İllər belə keçərdi.
Muğanda ot otlayıb,
Arazda su icərdi
Bu sürülər bahar, qış.
Qoyunlar köklüyündən
Dərisinə sığmazmış.
Dargöz paxıl qonşular
Baxıb dərd çəkirdilər.
Muğanı tutmaq üçün
Min tədbir tökürdülər.
Günlərin bir günündə,
Qışın lap oğlan çağı,
Ərdə adlı tayfanın
Bütün yeri, otlağı
Qalır qarın altında.
Qar yağır vermir ara.
Qoyun, quzu qırılır-
Tayfa qalır avara.
Hər yana soraq düşür,
Hər yana adam gedir.

III iştirakçı: - "Amandır, kömək edin,
Sürülər əldən gedir!
Hamı deyir: bu dərdin
Muğandadır əlacı.
Bil tayfası istəsə
Doydurar neçə acı.
Ərdəlilər deyirlər:
Yaza çıxardın bizi,
Qoymayın qış qurd kimi
Dağıda sürümüzü...
Bilin ağsaqqalları

Xeyli məşvərət edir.
Deyirlər insaf deyil-
Bir tayfa əldən gedir.
Hansı insanın görən
Dözər buna ürəyi-
Bir ac görə gizlədə
Süfrədəki çörəyi?
-Gəlin, qardaşlar, gəlin
Siz qonaq olun bizə,
Muğanın bol neməti
Çatar hər ikimizə...
Billər razı olur,
Onlar sürülərilə
Qışı Muğanda qalır.
II iştirakçı: - Qış keçir, bahar gəlir,
Çöllər, düzlər dirçəlir.
Güllərdən, çiçəklərdən
Təzə don geyir çəmən.
Gələndə yaz buludu-
Göylərin su səpəni
Yuyur çəməni, otu.
Dağlardan enən çəni
Bağlar qonaq saxlayır.
Ağacları yoxlayır
Hər axşam gələn duman.
Kolların arasından
O sürünüb axınca,
Sanki ağsaçlı qoca
Gəzir bağı-bağçanı,
Gəzir bütün Muğanı...

Ərdəlilər demişdi:
IV iştirakçı: -“Bizimki tək bu qışdı.
Yaza çıxarın bizi,
Qırmayaq sürümüzü.”
II iştirakçı: - İndi yaz gəlib ancaq
Hələ tərpənmir qonaq?
Ev sahibi gözləyir,
Hələ də əzizləyir,
Deyir: dözüb hər dərdə
Qışı qaldıq bir yerdə.
Yaz hələ təzə gəlib.
Yəqin bir az dincəlib,
Sonra yığışıb gedər.
Qoy gözləyək bir qədər...
Fəqət çox qonaq,
Doğma yurd, doğma torpaq
Yada düşür, nə düşür.
Bircə gündə yığışıb
Qonaqlar çıxır yola.
Deyirlər: uğur ola...
I iştirakçı: - Qonaqlar çox getdilər,
Qonaqlar az getdilər.
Neçə gecə getdilər.
Neçə gündüz etdilər,
Çatdılar doğma yurda.
Gördülər indi burda
Düşmən məskən salıbdır.
Yurdda qalanları da
Onlar əsir alıbdır.
Bir qoca göndərdilər.

Gedib axşama kimi
Öyrənsin- düşmənlərin-
Nədir sözü, tələbi...
Qoca getdi, qayıtdı,
Üz-gözü qan içində.
Dedi: belə bir tayfa
Yoxdur cahan içində.
Hamısı yaraqlıdır
Pəhləvana bənzəyir.
Başçıları dinəndə:
V iştirakçı: -“Ölləm, öldürrəm” deyir.
Öldürmürəm səni mən.
Get, öz adamlarına
Bu xəbəri yetir sən.
Əgər istəyirsiniz
Əsirlər azad ola,
Əgər istəyirsiniz
Canınız da sağ qala
Yığıb tamam gətirin
Atları, qoyunları.
Sonra da tərk eləyin
Bu yurdu, bu diyarı
Üç gün möhlət veririk.
Dediyimiz olmasa-
Vədə tamam olan gün,
Hamınızı qılıncla
Qıracağıq büs-bütün...

I iştirakçı: - Çox pərişan oldular
Qocalar bu xəbərdən.

Yığılıb dərdləşdilər
Qurtarmaqçın xətərdən.
Axır bu oldu qərar:
“Əsirlərin yolunda,
Bir də yurdun uğrunda
Onlar vuruşacaqlar...”
Ancaq qalib gəlməkçin
Arxa, kömək gərəkdir.
Yoxsa düşmən onları
Tamam məhv edəcəkdir.
Necə elə, tayfaya
O axşam getdi xəbər,
Üç günədək Ərdənin
Köməyinə gəlsinlər.
Gecə tayfa yatmadı-
Ay söndü, ulduz söndü.
Səhər ancaq üfüqdə
Qızıl Günəş göründü,
Fəqət gələn olmadı.
Gecə qara atlasdan
Çöllərə saldı pərdə.
Yollar görünməz oldu,
Yaxınlaşdı xətər də,
Fəqət gələn olmadı.
İkinci gün də kecdi,
Xəbər çıxmadı yenə.
Üçüncü gün başladı,
Xal düşdü dan yerinə.
Qocalar həsrət-həsrət
Baxan zaman yollara,

Ümidsizlik içində
Günəş doğdu bu ara.
Sonra Muğan tərəfdən
Toz qalxdı asta-asta.
Ancaq günorta üstü
Gəlib yetişdi dəstə.
Gəldi Bil tayfasının
Qəhrəman cavanları,
Birlikdə məhv etməyə
Yadelli düşmənləri.
Axşam gün batan zaman
Xəbər gəldi yağıdan:

V iştirakçı: - İndi nə deyirsiniz,
Vədə yetişdi başa.
Cavab göndərdilər ki,
-Biz hazırıq savaşa!
Səhər böyük bir düzdə
Çox qanlı döyüş oldu.
Qılıncla baş kəsildi,
Topuzla qol qırıldı.
Ağır yaralıların
Göyə qalxdı fəryadı.
Nə fəryada, nə aha
Məhəl qoyan olmadı.
Vuruşdular üfüqdə
Gün batdı, şər qarışdı.
Yağının dəstəsinin
Yarısı qalmamışdı.
Onlar aralarında
Belə qoydular qərar:

“Bu qoçaq tayfalarla
Daha vuruşmadılar.”
Gecə düşmən atlanıb
Getdi Araza sarı.
Onlar çox qorxa-qorxa
Keçirdilər yolları.
Dağ gövdəli bir çoban
Birdən çıxdı yol üstə.
Nə önə nə geriyə
Gedə bilmədi dəstə.
Dedilər yol ver bizə
Enək çayına.
VI iştirakçı: - Çoban dedi: Xan Araz
Qismət olmaz xainə.
Dedilər: yol verməsən,
Qılıncla doğrayarıq.
Çoban dedi: buyurun,
I iştirakçı: - Biz bunu yoxlayarıq.
Gecə zülmət, qaranlıq,
Düşmənlər həyəcanlı.
Çoban da lap dağ kimi
Kəsib keçidi, yolu.
Onlar qılınc çəkdilər
Vuruşsunlar son kərə.
Qılınclar dağa dəyib
Sınıb töküldü yerə.
Sonra da bir daş qopdu
Hər qayanın döşündən.
Qaldı o daşın altda
Atlı, yaraqlı düşmən.

Düşüb düşmən izinə
Ərdə ilə Bilililər
Səhər bura gəldilər.
Gördülər kəsib yolu
Ağ zirvəsi qarlı
Düşmən cəsədi üstə
Ucalır vüqarlı dağ.
Qocalar baxıb-baxıb
Dedilər bir ağızdan:
- Bu bizim Xan çobandır.
- Bu bizim Savalandır.
Yol üstə dönüb dağa-
Düşmən  keçə bilməsin
Sevdiyimiz torpağa.
Elə o vaxtdan dağın
Adı Savalan oldu,
Bütün elin, obanın
Sevdiyi məkan oldu.
O döyüş  meydanında
Əhd etdi qardaş kimi
İki tayfa: Ərdə, Bil.
Yurd saldılar, o yurdun
Adı qaldı Ərdəbil...
Babam burada  susdu,
Nağılı sona çatdı.
Göydən üç alma düşdü,
Üçü də ona çatdı...

I iştirakçı: - Fəqət elə indi də
Bu yerlərdən keçərkən,

Düşmənə yol verməyən
Savalana baxanda,
Xan çobanı anıram.
Babamın nağılını
Bir həqiqət sanıram.-
Mən ona inanıram...

Balaş Azəroğlunun 95 illik yubileyi ilə əlaqədar keçirilə biləcək maraqlı tədbirlərdən biri də ədəbi -bədii gecədir. Bu münasibətilə kitabxanada *"Mən gəlmək istədim, gələ bilmədim, elə hicran oldu, ayrılıq oldu"* adlı ədəbi-bədii gecə keçirilir. Tədbirə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, oxucular, məktəblilər və ümumilikdə poeziyasevərlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini tuturlar.
I aparıcı: - Salam, dəyərli qonaqlar, sizləri bu şeirli gecəmizdə xoş gördük!.. Bir-birindən tikanlı sərhəd məftilləri ilə ayrılmış Güney və Quzey Azərbaycanın mənəviyyatı, dili, ədəbiyyatı həmişə bir olmuşdur. Bu baxımdan, gənclik illərini Ərdəbildə yaşamış, Cənubi Azərbaycanın milli azadlıq hərəkatının fəal iştirakçısı olmuş Azərbaycanın Xalq şairi Balaş Azəroğlu güneyli-quzeyli ədəbiyyatımızın görkəmli nümayəndəsidir.
II aparıcı: - Bəli, tarixən də, indinin özündə də ədəbiyyatımız vahiddir. Dövlət sərhədləri ilə bölünməyib. Məhz buna görə də Azəroğlu əsərlərini ümumazərbaycan üfüqləri daxilində yazmışdır.

Balaş Azəroğlu novator şairdir, ədəbiyyatımıza yeniliklər gətirmişdir. Onun bu tarixi xidməti Cənubi Azərbaycan ədəbiyyatına yeni ab-hava gətirməklə yanaşı, poeziyamızda parlaq səhifədir.

*I aparıcı:* - Şair deyəndə ki, mən "Azadlığın carçısıyam, inqilab, azadlıq şairiyəm" haqlı idi. Şairin işi də elə budur. Şair dünyaya zəlzələ yaratmaq, tufan qoparmaq üçün gəlir. Balaş Azəroğlu anadan şair doğulub: mərd və mübariz olub. O, "Elə oğul istəyir Vətən" yazdı ki, bu saat da Vətən həmin o elə arzulara möhtacdır.

Millətin dərdinə, sevincinə şərik olan, onun azadlığı yolunda "can qoyan" bir şairə "Azəroğlu" təxəllüsü çox layiqdir. Nə qədər ki, vətən para-paradır, nə qədər ki, mübarizə var, nə qədər ki, şeir var, Balaş Azəroğlu da var bu dünyada.

*II aparıcı:* - Balaş Azəroğlunun poetik düşüncələrinin coğrafi sərhədləri və imkanları çox geniş və zəngindir. Şairin bütün yaradıcılığının ruhunu təşkil edən təbilik və müasirlik, güclü vətənpərvərlik və xəlqilik, dərin beynəlmiləlçilik ideyaları, zəngin, incə, oynaq formada, yüksək obrazlarla öz bədii həllini tapır. Sülh, azadlıq, demokratiya uğrunda mübarizə Balaş Azəroğlu yaradıcılığında geniş yer tutur. Şair bu mövzunu həmişə vətən və xalq anlayışı ilə vəhdətdə görür. Onun vətəndaş duyğuları ilə lirik qəhrəmanın ehtiras və düşüncələri çox vaxt eyniləşir.

*I aparıcı:* - Susub qızıl olmaqdansa
Danışıram.
Gümüş nədir

Qoy dəmir olsun qiymətim,
Nə qədər ki,
Xalqım,
Vətənim,
Həqiqətim,
Təpiklər altındadır,
Mən necə alışmayım!
Mən necə yanmayım!

*II aparıcı:* - Balaş Azəroğlunun yaradıcılığının bir hissəsini təbiət lirikası təşkil edir. Təbiətin füsünkar mənzərələri, əzəmətli dağlar, göz yaşı kimi duru bulaqlar, laləli, nərgizli çöllər, quşqonmaz qayalar ilk gündən şairə zövq-səfa vermiş, təxəyyülündə silinməz izlər buraxmışdır. Buna görə də şair təbiətə, sadəcə olaraq, cansız varlıq, insanı əyləndirən gözəlliklər mənbəyi kimi baxmır. O, təbiətdən arzularını daha güclü şəkildə ifadə etmək, azadlıq ideyalarını daha geniş yaymaq üçün istifadə edir.

*I aparıcı:* - "Dağlar", "İki Araz", "Bahar gəlir", "Bənövşə", "Göy göl", "Buludlar", "Savalan", "Astara yolları", "Küçələrə yağış yağır", "Bülbül", "Güllərə qəlbim yanır", "Xəzər yuxuma gəlir", "Günəşin qürub çağı", "Qara dəniz", "yarpaqlar töküləndə" və s. şeirlərində şairin içtimai arzu və istəkləri yüksək sənətkarlıqla ifadə edilmişdir. Təbiətin saf və canlı təsviri Balaş Azəroğlunun şeirlərinin əsas məziyyətidir. Şairin hisslər, düşüncə və həyacanları ilə təbiət arasında əlaqə və ünsiyyət vardır.

*II aparıcı:* - Çöllərdə baharı oxşadı rüzgar,
Əriyib su oldu quzeylərdə qar.

Bilirəm,  bu qızıl saçaqlı bahar
Qoymaz yarpaqlarını dona,  bənövşə.

Bilmədim küskünsən, yoxsa gileyli,
Gəlib mən yanında oturdum xeyli.
Qəlbimdə nə səni qoparmaq meyli,
Nə də əl uzatmaq, sənə bənövşə.

*I aparıcı:* - Balaş Azəroğlu klassik ənənələri yaradıcı şəkildə davam və inkişaf etdirən sənətkarlardandır. O, heca və sərbəst vəznin ən oynaq şəkillərindən ustalıqla istifadə edir. Onun yaradıcılığında sərbəst şeirin milliləşmiş çoxsaylı gözəl nümunələrilə yanaşı, heca vəzninin, demək olar ki, bütün formalarına rast gəlmək olar. Balaş Azəroğlunun yaradıcılığının mühüm bir hissəsini poemalar təşkil edir.
*II aparıcı:* - Balaş Azəroğlu qələmə aldığı hər bir mövzuda vətəni tərənnüm edir.

Qoy deyim səsimi eşitsin aləm,
Qürbət ölkələrdə yüz il də gəzsəm.
Vətən torpağının həsrətindəyəm.
Xəyalım uzaqdan sizi qucaqlar.
Dağlar, a dağlar.

*I aparıcı:* - Azərbaycanın Xalq şairi, “Şöhrət” ordenli sənətkarımız Balaş Azəroğlu xalqın azadlıq ordusunu təkcə şeirlərində təbliğ etməklə kifayətlənməyib, şəxsən özü  azadlıq  yolunun iştirakçısı oldu. Bu, onun o taylı, bu taylı Azərbaycana olan dərin sevginin təzahürüdür. Elə buna görə də, xalq yazıçı Anar çox haqlı olaraq şairi “O taylı, bu taylı şeirimizin ağsaqqalı”

adlandırmışdır. Balaş Azəroğlu insana xas olan yüksək keyfiyyətləri - həm şairlik istedadı, həm də vətənə bağlılığı özündə daşıyır. O, millətin danışan dili oldu və məhz bunun üçün xalqın rəğbətini qazandı. Xalqın narahat dönəmlərində rahatlıq Balaş Azəroğluna yad oldu.

*II aparıcı:* - Dözə bilmirəm günlərin
Sürət qatarı kimi
Gəlib ötməsinə
Elə qorxuram.
Gün- gün,
Saat-saat qoruduğum
Ömrümün vaxtsız bitməsinə.
Qorxuram bir gün.
Vaxtsız gedim həyatdan,
Arzuladığım günü
Görə bilməyim.
Elə qorxuram öləndə
Nigaran qalam vətəndən,
Rahat ölə bilməyim.

*I aparıcı:* - Xalq şairi Balaş Azəroğlunun çoxillik zəngin ədəbi fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra orden və medallarla təltif edilmiş, “Şöhrət” ordeninə layiq görülmüşdür. Tanınmış şair və içtimai xadim, səmimi insan Balaş Azəroğlunun ışıqlı xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaq.

# ƏSƏRLƏRİ

## Latın qrafikası ilə

Seçilmiş əsərləri : şeirlər və poemalar. - Təkrar nəşr. - Bakı : Öndər, 2004. - 288 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Lirika : Poeziya. - Bakı : Şirvannəşr, 2004. - 96 s.

## Kiril qrafikası ilə

Əsərləri. - Bakı : Azərnəşr, 1961. - 284, [1] s.

Seçilmiş əsərləri : şeirlər və poemalar. - Bakı : Azərnəşr, 1991. - 325 s.

Seçilmiş əsərləri : şeirlər və poemalar. - Bakı : Yazıçı, 1983. - 236 s.

Seçilmiş əsərləri. - Bakı : Azərnəşr, 1970. - 308, [1] s.

Ağca : şeirlər və poema . - Bakı : Gənclik, 1991. - 52, [2] s.

Dünənim, bu günüm, sabahım : şeirlər və poemalar. - Bakı : Gənclik, 1978. - 240, [1] s.

Elə oğul istəyir Vətən. - Bakı : Azərnəşr, 1964. - 190 s.

Hafizin qəbri üstündə : poema. - Bakı : Uşaqgəncnəşr, 1959. - 28 s.

İllərdən illərə : şeirlər və poemalar. - Bakı : Gənclik,

1971. - 284, [1] s.

Məcnun söyüd : şeirlər və poemalar . - Bakı : Azərnəşr, 1966. - 277, [1] s.

Səvalan əfsanəsi : nağıllar. - Bakı : Gənclik, 1967. - 51 s.

Sinəm Savalan dağıdır : şeirlər və poemalar . - Bakı : Yazıçı, 1984. - 267, [1] s.

Yarpaqlar töküləndə : şeirlər və poemalar. - Bakı : Azərnəşr, 1976. - 276, [1] s.

***Kitablarda***

Sənsən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 219-220.

***Dövri mətbuatda***

Bənövşə əkilib xiyabanlara ; Yuxuma gəlmişdin ; Dağlar ; Ömrüm : şeirlər // Ədəbiyyat qəzeti. - 2011. - 18 noyabr. - № 42. - S. 1,3.

Bu, əlahəzrətin əmridir... // Ədəbiyyat qəzeti. - 2007. - 8 iyun. - S.3-4.

“Ədəbiyyat qəzeti” mənim həmsöhbətimdir : [Xalq şairi Balaş Azəroğlu ilə söhbət / yazdı S.Hüseynoğlu] // Ədəbiyyat qəzeti. - 2009. - 17 aprel. - S. 1-2.

Qələm yoldaşıma : şeir // Ədəbiyyat qəzeti. - 2015. - 14 noyabr. - № 58. - S. 19.

“Qoy sözüm güc alsın elimdən mənim" : İranda nəşr olunan "Navid Azərbaycan" qəzeti üçün Əli Pəyaminin Balaş Azəroğlundan aldığı müsahibə // Ədəbiyyat qəzeti. - 2006. - 17-24 noyabr. - S.1S;3. .

Mirzə İbrahimov haqqında xatirə : Mirzə İbrahimov - 100 // Ədəbiyyat qəzeti. - 2011. - 29 iyul. - № 28. - S. 1-2.

“Yeddi gözəl"i necə tərcümə etdim : "Yeddi gözəl" əsəri haqqında // Ədəbiyyat
qəzeti. - 2012. - 1 sentyabr. - № 32. - S. 3.

## HAQQINDA

### *Kitablarda*

Axundlu Y. Balaş Azəroğlu : məqalə // Mənim ədəbi dünyam. - B. : Maarif, 1998. - S. 199-213.

Balaş Azəroğlu (1921 ) // Müasir Azərbaycan ədəbiyyatı : dərslik : I C. - B. : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 464-472.

Sadıq F. Balaş Azəroğlu // Taleyin acığına. - B. : Çinar-Çap, 2003. - S. 252.

### *Dövri mətbuatda*

Abbaslı T. Balaş Azəroğlu : doxsan il yaşayan, yetmiş ildən çox yazıb-yaradan və sonsuz illərə qalan şair // Mədəniyyət. - 2014. - 12 noyabr. - № 86. - S. 13.

Balaş Azəroğlu - 85 // Ədəbiyyat qəzeti. - 2006. - 17 noyabr. - S.1.

Balaş Azəroğlu : nekroloq // Xalq qəzeti. - 2011. - 26 aprel. - № 88. - S. 4. ; Ədəbiyyat qəzeti. - 2011. - 29 aprel. - № 15. - S. 2.

Əhmədalılar T. Poeziya və demokratiya mübarizi : xalqımız Balaş Azəroğlunu belə dəyərləndirir // Mədəniyyət. - 2011. – 11noyabr. - № 83. - S. 11.

Gülayə. Həmişə kök tutmur kökdən ayrılan : xalq şairi Balaş Azəroğlu haqqında // Kaspi. - 2013. - 30 noyabr. - № 219. - S. 24.

Gülgün M. Bir gün : Azəroğluna // Ədəbiyyat qəzeti. - 2009. - 27 fevral. - S. 3.

Hüseynoğlu S. Balaşlı günlərin xatirəsi : Balaş Azəroğlu - 90 : "Balaşlı-Balaşsız günlər" toplusunun təqdimatı // Ədəbiyyat qəzeti. - 2012. - 19 may. - № 18. - S. 3.

Xalq şairi Balaş Azərğlu son mənzilə yola salınmışdır // Azərbaycan. - 2011. - 26 aprel. - № 88. - S. 6. ; Xalq qəzeti. - 2011. - 26 aprel. - № 88. - S. 7. ; Ədəbiyyat qəzeti. - 2011. - 29 aprel. - № 15. - S. 2.
Xalq şairi Balaş Azəroğluna : İyirmi bir Azər təşkilatı idarə heyətinin şairin 85 - illik yubileyinə təbrik məktubu // Ədəbiyyat qəzeti. - 2006. - 24 noyabr. - S.3.

Xəlilzadə F. İdeyalar, arzular şairi... : Balaş Azəroğlu haqqında // Azərbaycan. - 2011. - 12 noyabr. - № 249. - S. 8.

Qoca F. Əlvida... : vida sözü // Ədəbiyyat qəzeti. - 2011. - 29 aprel. - № 15. - S. 2.

Qoca F. Balaş Azəroğluya : şeir // Ədəbiyyat qəzeti. -

2008. - 15 fevral. - S. 3.

Məhərrəmova T.Balaş Azəroğlunun son müsahibəsi // Kaspi. - 2011. - 30 aprel. - № 72. - S. 15.

Məhərrəmova T. "Bu həsrət mənə lap çətin oldu" : Xalq şairi Balaş Azəroğlu haqqında // Kaspi. - 2011. - 26 aprel. - № 68 (3). - S. 15.

Nəbioğlu S. Milli poeziyanın unudulmaz sənətkarı : Xalq şairi Balaş Azəroğlu haqqında // Respublika. - 2011. - 11 may. - № 97. - S. 11.

Nəbioğlu S. Nəhrlər qovuşanda : kitabda Balaş Azəroğlu və Qulamrza Səbri Təbrizinin müxtəlif illərdə qələmə aldıqları şeirlər haqqında // Ulduz. - 2011. - № 8. - S. 57-59.

Nəbioğlu S. Ömrün yel qanadlı illəri : Balaş Azəroğlu haq-da // Ədəbiyyat qəzeti. - 2006. - 17 noyabr. - S.3-4.

Sərvaz. Almaz kimi kəsərli : Balaş Azəroğlu - 90 // Ədəbiyyat qəzeti. - 2011. - 18 noyabr. - № 42. - S. 1,3.

Balaş Azəroğlunun 95-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait

Kompyuter yığımı və

dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;

E-mail: childlibbaku@yahoo.com

URL:www.clb.az

F.Köçərli adına Respublika

Uşaq Kitabxanasında

çap olunmuşdur.

Sifariş:

Çapa imzalanmışdır:

Tirajı:

Pulsuz